# Məktəblilərin asudə vaxtının təşkilində müəllimlərin və valideynlərin pedaqoji təhsilinin əhəmiyyəti

**Rəqsanə Haqverdiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** lastyearinqafqaz@windovslive.com

**Rəyçilər:** p.ü.f.d., dos. F.M. Allahverdiyeva,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** məktəb, asudə vaxt, müəllim, təhsil, valideyn, ünsiyyət, bacarıq, şagird
**Ключевые слова:** школа, досуг, учитель, образование, родитель, общение, умение, ученик
**Key words:** school, leisure, teacher, education, parent, communication, skill, student

Şəhidlərin qanı, anaların gözyaşları, ziyalıların mürəkkəbi ilə müstəqillik qazanmış Azərbaycan — ana yurdumunzun qarşısında duran vacib ünsürlərdən biri də Vətənə, millətə layiqli, sağlam gələcəyi olan, sağlam ruhlu, sağlam düşüncəli, milli mənəvi dəyərlərə hörmət edən, vətənpərvər, bir sözlə, əsl şəxsiyyətlər yetişdirmək siyasətidir. Məhz bunun nəticəsi olaraq, bu gün respublikamızda uğurlu gənclər siyasəti həyata keçirilir. Gələcəyimizin sağlamlığı məhz məktəb daxilində, ailə daxilində müəllim və valideynlərin səyi nəticəsində formalaşır. Uğurlu gələcəyimiz öz başlanğıcını ailədən götürərək, məktəb daxilində pedaqoji proses zamanı öz pik nöqtəsinə qədəm qoyur.

Vaxt – keçib getdikdən sonra geriyə dönüşü mümkünsüz olan bir ünsürdür. Vaxtın dəyərini anlamayanlar asudə vaxtlarını boş, mənasız işlərə sərf edirlər. Valideyn və müəllimlər məhz şagirdlərin öz asudə vaxtlarını səmərəli keçirmələri üçün onlara dəstək olmalı, yol göstərməlidirlər. Lakin bunun üçün ilkin olaraq müəllim və valideynlər asudə vaxtın təşkilinə aid pedaqoji təhsilə yiyələnməlidir. Onların pedaqoji təhsilə yiyələnmələri asudə vaxtın səmərəli istifadəsi üçün əhəmiyyət kəsb edir. Problem burasındadır ki, bəzi müəllim və valideynlər asudə vaxt anlayışını kifayət qədər düzgün mənasında anlamayırlar. Və bu məktəblilərin asudə vaxtını necə keçirməsinə nəzarətə öz mənfi təsirini əks etdirir.

Məktəblilərin asudə vaxtı dedikdə, təkcə istirahət və bayram günləri nəzərdə tutulmur. Asudə vaxt məktəbdən sonra ev tapşırıqlarını, gündəlik tələbatlarını ödədikdən sonra qalan zaman diliminə deyilir.

Belə asudə vaxt zamanı məktəbli özü seçim edərsə, bu çox nadir halda səmərə verər. Adətən problemli ailələrdə, ailənin uşağın vaxtını səmərəli istifadə edilməsinə yönəlmiş dəstəyi göstərməyə zamanı olmur və nəticədə şagird asudə vaxtı öz seçimi ilə dəyərləndirərək pis vərdişlərə yiyələnə bilir. Bu baxımdan şagirdlərin asudə vaxt zaman dilimində edəcəkləri fəaliyyətlərin istiqamətləndirilməsində valideyn və pedaqoqların əməyi danılmazdır.

Asudə vaxtın səmərəli şəkildə həyata keçirilməsi gənclərin gələcəyi üçün çox vacibdir. Belə vərdiş hələ onlar uşaq ikən aşılanarsa, daha səmərəli, məhsuldar olar.

Asudə vaxtın düzgün istifadə edilməsi şagirdlərdə ünsiyyət bacarığının formalaşmasında da təsirini göstərir. Belə ki, gənclərin asudə vaxtı üçün nəzərdə tutulan klublarda, onlar özləri ilə eyni maraq dairəsinə xas olan şagirdlərlə birgə fəaliyyət göstərir, maraqları üzərinə dialoq qurub söhbət edirlər. Bu isə öz növbəsində qrup üzvlərinin bir birlərinin fikirlərinə hörmətlə yanaşmasına, ortaq razılığa gəlməsinə şərait yaradır. Bütün bunlar, asudə vaxtdan düzgün

istifadə edilərsə, şagirdlərin müsbət keyfiyyətlərlə silahlandırılmasına sübutlardır.

Məktəblilərin asudə vaxtının təşkilində müəllimlərin. Valideynlərin pedaqoji təhsilinin olması, asudə vaxtın sağlam təşkil edilməsi gənclərin fiziki, psixoloji və şəxsi keyfiyyətlərinin formalaşmasına və inkişafına müsbət təsir edir. Belə ki, günümüzün hər sahəsində tətbiq edilən, yeni texnologiya məhsulu olan, gənclərin daha çox marağına səbəb olan internet, yanlış və məlumatsız şəkildə istifadə edilərsə, bərabərində neqativ hallarda gətirə bilər ki, valideyn və müəllimlər bu cür halların baş verməməsi üçün şagirdlərə asudə vaxtlardan səmərəli istifadənin müsbət nəticələrini aşılamalıdırlar.

Şagirdi asudə vaxt dilimində özü ilə baş-başa qoymaq əvəzinə onlara yaxınlaşmaq, iç dünyalarında baş verənləri anlaya biləcək şəkildə psixoloji söhbətlər aparılmalıdır. Məktəb daxilində və ya ailə daxilində həmyaşıdları ilə birlikdə görüşlər təşkil edib, hər görüşə əvvəlcədən planlaşdırılmış mövzular üzrə kitablar, hekayələr oxuyub, müzakirələr aparmaqla, onları yormadan həm təhsil vermək, həm də eyni zamanda tərbiyə etmək mümkün haldır.

Uşaqlar çiçəklənən Azərbaycanımızın gələcəyidir. Gələcəyimizə bu gün necə baxırıqsa, elə də bizim qarşımıza çıxacaq. Bu vacib məsələdə məktəb rəhbərliyi, psixoloqlar, müəllimlər və valideynlər məsuliyyətli olmalıdırlar.

Bütün sadaladığımız asudə vaxtdan istifadəyə şagirdləri bədii əsərlər oxumağa həvəsləndirməyi də tərəddüd etmədən əlavə edə bilərik. Asudə vaxtını bədii əsərlər oxuyaraq keçirən şagird söz ehtiyatı ilə silahlanacaq, dərslikdən əlavə kitablara maraq göstərəcək və mütaliə bacarığı formalaşacaq. Ən vacibi isə müasir dövrün qlobal probleminə çevrilmiş, onların marağını daha çox cəlb edən mobil telefon, kompyuter, planşet və s. kimi avadanlıqlara maraqları azalacaq. Lakin onların asudə vaxt dilimində oxumağa başlayacağı bədii əsərlərə valideyn və müəllimlərin nəzarəti mütləqdir. Onların oxuduğu bədii əsərlər proqram əsasında qazandıqları biliyi dərinləşdirməyə xidmət etməli, öyrədici, tərbiyəedici və inkişafetdirici texnologiyaya malik olmalıdır.

Şagirdlərin mütaliəsi üçün elə əsərlər seçilməlidir ki, bu əsərlər şagirdlərdə psixoloji problem yaratmasın, əksinə şagirdlərdə əməyə, zəhmətə bağlılıq, Vətənə, torpağa məhəbbət, böyüklərə hörmət, özünə və ətrafındakılara hörmət hissi formalaşdırsın. Onları düşünməyə sövq edib, insani keyfiyyətləri aşılasın.

Bədii əsərlərin mütaliəsi şagirdlərin insani duyğularını zənginləşdirir, mənəviyyatına müsbət təsir edir. Onlarda xeyirxahlıq hissi formalaşdırır və söz ehtiyatını zənginləşdirir. Bədii ədəbiyyat mütaliəsi tənqidi təfəkkürün, yaradıcı təfəkkürün, eyni zamanda nitq mədəniyyətinin formalaşmasına, sərbəst düşünüb, nəticə çıxarmalarına səbəb olur.

Şagirdlərin asudə vaxtı elə təşkil edilməlidir ki, bu onların dərs ili ərzində öyrəndiklərini inkişaf etdirsin və öyrəndiklərini təcrübədə istifadə etdirsin. Asudə vaxt elə təşkil edilməlidir ki, məktəblilərin əldə etdikləri biliklər təcrübədə tətbiq edilsin. Belə nəticəyə gəlmək olar ki, asudə vaxt öyrənilənlərin təcrübədə tətbiqidir.

Müəllimlər məktəbliləri asudə vaxt zamanında dərsdə adlarını eşitdikləri məkanlara səyahətə apara bilərlər. Asudə vaxt eyni zamanda məktəblilərin marağına uyğun təşkil edilməlidir. Məktəb ili başa çatdıqdan sonra məktəbli artıq öz bacarığının, öz asudə vaxtının ağasına çevrilir. Müəllim və valideyn bu vaxtdan istifadəni öz maraqları üzərində təşkil edib, məktəblinin marağını nəzərə almazsa, bu artıq vaxt itkisinə səbəb olacaqdır. Asudə vaxtın təşkilində hər şeydən əvvəl məktəblinin marağı nəzərə alınmalıdır, çünki bu onların özlərini kəşf etmələrinə, yeni məsuliyyətlər öhdələnib, ona nəzarətə yiyələnməklərinə səbəb olacaqdır. Şagirdlərin asudə vaxtlarının səmərəli təşkilinin vacibliyi qədər, onların özlərinə asudə vaxtdan düzgün istifadəni aşılamaq da vacib amillərdəndir.

Asudə vaxtın təşkili ilə bağlı başqa maraq yaradıcı yollar da vardır ki, bunlara foto-şəkillərin çəkilməsi və s. kimi yaradıcı işlərlə məşğul olmaq da səmərəlidir. Belə məşğələlərdə məktəblilərin əməyə münasibəti yüksəlir, zəhmətkeş və intizamlı insan kimi formalaşır.

Asudə vaxtın səmərəli təşkilində müəllimin pedaqoji təhsilinin əhəmiyyəti nəzərə çarpacaq şəkildə vacib məsələdir. Müəllimin pedaqoji təhsili onun silahıdır. Müəllim eyni zamanda valideyn görüşləri təşkil edərək, ailələrə baş çəkərək bu məsələ ilə əlaqəli valideynlərin maariflәndirilməsi istiqamətində də səy göstərib, nəticələr əldə etməlidir ki, asudə vaxtın təşkili öz səmərəsinin məhsulunu dərə bilsin. Bağban nə qədər çiçəklər barəsində məlumatlı olarsa, bir o qədər çox məhsul əldə edər.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı ondan ibarətdir ki, şagirdlər asudə vaxtlarında nəzarətsiz qalarsa, mənfi maraqlara meyl edərlər ki, bu gələcəyimiz olan məktəblilərin tərbiyəsində boşluqların yaranmasına səbəb olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, bu mövzu üzrə bütün materiallarda asudə vaxtın düzgün təşkil edilməsi yolları müəllim və valideynlərin pedaqoji təhsili yönündə istiqamətləndirilir, lakin vacib olan amillərdən biri isə asudə vaxtın düzgün təşkil edilməsinin şagirdin özünə aşılanmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Asudə vaxtın düzgün təşkili məktəblilərdə fiziki, psixoloji və şəxsi keyfiyyətləri formalaşdırır və onun inkişafına təsir edir. Sonda məktəblinin biliyə, təhsilə marağı artır. Ona görə də bu məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M.Həmzəyev. Pedaqoji psixologiya. Ali məktəb tələbələri üçün dərslik. Bakı, 1991.
2. M.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Ali məktəb üçün. Bakı, 2000.
3. M.İlyasov. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.
4. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Kurikulum» elmi-metodik jurnalı.

**Р. Хагвердиева**

## Значение педагогического образования учителей и родителей в организации досуга школьников

## Резюме

Организация досуга школьников всегда была одним из актуальных вопросов. Допустим, что педагогическое образование учителей и родителей также имеет большое значение в решении этой проблемы. В статье рассматриваются пути совместного решения этого важного вопроса.

**R. Haqverdieva**

## The importance of pedagogical education of teachers and parents in organizing leisure time of pupils

### Summary

Organization of leisure time for pupils has always been one of the topical issues. Let's admit that the pedagogical education of teachers and parents is also of great importance in regulating this problem. The article explores the ways of joint resolution of this important issue.

**Redaksiyaya daxil olub:** 19.04.2019